| Xəstəlik sinifi (XBT-10) | N - Sidik-cinsiyyət sisteminin xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı (İSİM) | Pirverdiyeva A. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| N70.0. | Kəskin salpingit və ooforit |
| N70.1. | Xroniki salpingit və ooforit |

| Müalicə |
|---|

Bütün antibakterial müalicə sxemləri honoreya, xlamidiya və anaerob infeksiyalara qarşı təsirli olmalı, həmçinin servikal kanaldan kulturanın nəticələrini və əkilmiş patogenin antibiotiklərə həssaslığını nəzərə almalıdır

Təklif olunan müalicə sxemlərindən yalnız biri istifadə olunur:

Antibakterial terapiya:

Sxem №1

***seftriakson (ceftriaxon***) 500 mq vena/əzələdaxili olaraq gündə 2 dəfə və ya ***sefoksitin (cefoxitin)*** 2 q vena/əzələdaxili, bir dəfə + ***doksisiklin*** (***doxycycline***) venadaxili, 100 mq və ya ***doksisiklin*** 100 mq, gündə 2 dəfə + ***metronidazol (metronidazole***) 400 mq, daxilə, 14 gün;

Sefalosporinlərin istifadəsi klinik yaxşılaşmadan 24 saat sonra dayandırıla bilər; doksisiklin ( doxycycline) terapiyanın 14 gününə qədər davam etdirilir.

Sxem № 2 :

***Klindamisin (clindamycin***) 900 mq, venadaxili, klinik yaxşılaşmaya qədər, hər 8 saatdan bir **+ *gentamisin (gentamicin***), vena/əzələdaxili (2 mq/kq bədən çəkisi), ardınca isə hər 8 saatdan bir baxım dozası (1,5 mq/kq).

Parenteral müalicə kliniki yaxşılaşmadan 24 saat sonra dayandırıla bilər; Terapiya davam etdirilməlidir və ***klindamisin (clyndamycin***) 450 mq, daxilə, gündə 4 dəfə, 14 gün və ya ***doksisiklin (doxycycline***) 100 mq, gündə 2 dəfə + ***metronidazol*** 400 mq , 14 gündən ibarətdir.

Sxem №3:

· ***ampisilin/sulbaktam (ampicillin+sulbactam***) 3 q, hər 6 saatdan bir – kliniki yaxşılaşmaya qədər;

klinik yaxşılaşmaya qədər hər 12 saatdan bir ***doksisiklin (doxycycline***) vena/əzələdaxili, sonra 14 gün ərzində 100 mq, daxilə olaraq.

Sxem № 4 :

***Seftriakson (ceftiaxon)*** 250 mq,əzələdaxili olaraq, bir dozada;

***Doksisiklin (doxycycline***) 100 mq, venadaxili və ya 14 gün ərzində, gündə 2 dəfə, daxilə olaraq;

***Metronidazol (metronidazole***) 14 gün ərzində, gündə 2 dəfə, 500 mq, daxilə.

Sxem № 5 (UD - 1B):

***Sefoksitin (cefoxitin***) 2 q, əzələdaxili, bir dozada;

***probenecid*** 1 q, bir dozada, daxilə

***doksisiklin (doxycycline***) 14 gün ərzində, gündə 2 dəfə, 100 mq, daxilə;

· ***Metronidazol (metronidazole***) 14 gün ərzində, gündə 2 dəfə, 500 mq, daxilə

Tubo-ovarial absesi olduqda, ***klindamisin (clindamycin***) ilə bir sxemdən istifadə daha təsirli olur. Honoreya üçün müsbət nəticə verən və sefalosporinlərdən istifadə edə bilməyən qadınlarda ***azitromisin (azithromycin***) istifadə edilə bilər: 2 q, daxilə, 1 dəfə.

## Ədəbiyyat

Воспалительные заболевания органов малого таза (сальпингит, оофорит, сальпингоофорит)

Версия: Клинические протоколы МЗ РК - 2015 (Казахстан).

**https://u.to/l0MEIA**